# NASİRLİKDƏN EKOLOQLUĞA

***"Ətraf mühitə verdiyimiz sevgi də, nifrət də gec-tez özümüzə qayıdır"***

## Əli Rza Xələfli



*Anar MƏMMƏDOV,*
*Bakı Dövlət Universitetinin dosenti,*
*şair-publisist,*
*Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin,*
*Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyinin üzvü*

Ekologiya cavan (1866), eyni vaxtda çox geniş əhatəyə malik ümumbioloji elmdir. Ekologiyanın mərkəzində canlı sistem dayanır. Ona görə ekologiyanın yaranmasının əsas səbəbi canlılar haqqında, o cümlədən, insanların öz aralarında və ətraf mühitlə əlaqələri haqqında biliklər olmuşdur. Bədii ədəbiyyat isə başqa elm sahələrinə nisbətən ətraf mühitin ümumi təsviri ilə daha çox məşğul olur. Bədii ədəbiyyatın oxucularının kütləviliyini də nəzərə alsaq, onun ekologiya ilə çox sıx əlaqəli olması düzgün təsəvvür olunar.

Poeziyanın və publisistikanın ekoloji aspekti insanın təbii və antropogen mühit ilə vəhdətini əks etdirməkdir. Bunun üçün bədii ədəbiyyat müxtəlif istiqamətli fəaliyyət göstərməli olur: insana və ətraf mühitə etik və estetik münasibətlərin xarakterizə edilməsi; insanlığın mənəvi dəyərlərinin və əxlaqi kamilliyinin mənbəyi olan ana vətənin gözəlliklərinin və əhəmiyyətinin açılması; müasir ekoloji problemlərin elmi-estetik və sosial-siyasi səciyyəsini dərk etməyə və onların idarəçiliyinə kömək edilməsi; ətraf mühitə münasibətin tarixən dəyişkən nümunəvi əxlaqi normalarının konkret obrazlarla verilməsi və s. Ümumiyyətlə, klassik bədii ədəbiyyatda verilmiş təbiət təsvirləri elmi baxımdan demək olar ki, səhvsizdir, dövri mətbuatda gedən təbiət təsvirlərində isə ekoloji səhvsiz təsvirlərə ancaq sevinmək olur. Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlərin təsviri kimi...

İxtisasca ekoloq olduğumdan və 2007-ci ildən Bakı Dövlət Universitetinin Coğrafiya, Biologiya və Ekologiya və Torpaqşünaslıq fakültələrində ekologiyanın müxtəlif sahələri və tədris planına uyğun olaraq müxtəlif adları üzrə ("Ekologiya", "Ümumi ekologiya", "Ekologiya və təbiətdən səmərəli istifadə", "Biologiya, ekologiyanın əsasları ilə", "Qlobal ekologiya", "Onurğalı heyvanların ekologiyası", "Balıqların ekologiyası", "Azərbaycanın su hövzələrinin bioekologiyası" və s.) fənləri azərbaycan və rus dillərində tədris etdiyimdən aidiyyatı ədəbiyyata az-çox bələdəm. Odur ki, bu mövzuda milli dildə yazılan hər hansı bir yeni kitabı (istər dərslik, dərs vəsaiti, lüğət, monoqrafiya olsun, istərsə də elmi-populyar, publisistik kitab) böyük sevinc hissi ilə, bir tapıntı kimi qarşılayır və dərhal əldə edib, oxumağa çalışıram. Çünki, əgər bu kitablar əhalinin ekoloji maariflənməsində zərrəcə də əhəmiyyət daşıyırlarsa, deməк ki, hər biri faydalıdır, gərəklidir.

Etiraf etməliyik ki, rus dilində, xüsusilə, digər əcnəbi dillərdə ekoloji ədəbiyyat az deyil və yazılmaqda davam edir. Doğrudur, ölkədə ekologiya, torpaqşünaslıq və aqroekologiya məsələləri ilə bağlı akademik Qərib Məmmədovun və professor Mahmud Xəlilovun, ümumi ekologiya, ekoloji geologiya sahəsində akademik Vasif Babazadənin, onurğalı heyvanların ekologiyası, ətraf mühit ilə bağlı ilk ekoloqlarımızdan və bu sahədə ilk dərsliklərin (o cümlədən neçə-neçə ekoloji kitabın) müəllifi olan rəhmətlik professor Qara Mustafayevin (ruhu şad olsun), neft istehsalı və ekologiyaya dair professor Nəriman İsmayılovun, ekoloji coğrafiya sahəsində professorlar Şövqi Göyçaylının, Telman Xəlilovun (ruhu şad olsun), dosent Məhluqə Yusifovanın, bioekologiya ilə bağlı professorlar Rauf Sultanovun, Nərminə Sadıqovanın və dosent Svetlana Cəfərovanın, heyvanların müxtəlif qruplarının və su hövzələrinin bioekologiyası üzrə dosent Svetlana Cəfərovanın, ekoloji genetika ilə bağlı professorlar Məcnun Babayevin, Ellada Axundovanın və dosent Samirə Salayevanın, sosial ekologiya ilə əlaqədar rəhmətlik Ağayar Şükürovun, bitki ekologiyasına dair professor Elman İsgəndərin, ekoloji monitorinq sahəsində professorlar Şahin Əhmədov və Şəkər Məmmədovanın, ekologiya hüququna aid Daşqın Qənbərov, Əbülfəz Hüseynov, Mahir Əliyev, həmçinin A.Əsədov, L.Axundzadə, Z.Quliyevanın, eləcə də digər nüfuzlu alim-pedaqoqların qələmindən çıxan yetərincə sanballı dərslik, dərs vəsaiti və monoqrafiyalar bu sahəylə maraqlananlar üçün stolüstü kitaba çevriliblər.

Rəhmətlik professor Qara Mustafayevin bu ön sözün müəllifi ilə ekoloji sahədə (o cümlədən, ekoloji poeziya, folklor və ekologiya ilə bağlı) 10-a yaxın kitabı, neçə-neçə məqaləsi işıq üzü görmüşdür. Bu kitablardan "Həyat və poeziya", "Ataların sözü-Xalqın gözü", "Təbiətin sirləri - 1", "Təbiətin sirləri - 2" və digər nəşrlər oxucular, o cümlədən mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib. Qara müəllimin bu kitabın və bu yazının müəllifləri ilə 2018-ci ildə birgə çap olunan və ekologiyanın zəngin tarixinə işıq tutan "Ekologiyadan əvvəlki ekologiya" monoqrafiyası isə böyük maraqla qarşılanmışdı. Amma yaxşı olardı ki, ekologiya sahəsində milli ədəbiyyatımız bundan daha da çox olsun. Ona görə eşidəndə ki, görkəmli şair, nasir, jurnalist, yazıçı-publisist Əli Rza Xələflinin yaradıcılığı haqqında əziz dostum, fikirdaşım, ruhən mənə doğma olan Yusif Dirili yeni kitab üzərində çalışır, çox sevindim. Lakin, kitabın adının *"Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər"* olduğunu görəndə və biləndə ki, kitabın redaktorluğu və ön sözün yazılması mənə həvalə olunub, bir qədər fikrə getdim. Düşündüm ki, görəsən Y.Dirili görkəmli qələm sahibinin nəşr olunmuş çoxsaylı kitablarında, mətbuatda dərc edilmiş yazılarında ekoloji məsələlərə hansı aspektdən yanaşıb və bu aspektləri necə aça bilib? Çünki, bir acı həqiqət də var ki, indiki dövrdə hamı özünü ekoloq sayır, aidiyyatı oldu-olmadı bu sahədə qalın-qalın kitablar və s. yazırlar. Amma vərəqləyəndə görürsən ki, həmin kitablarda elmi səhvlər yetərincədir. Amma Əli Rza Xələflini illərdir tanıyıram, çoxşaxəli biliyinə, iti qələminə, erudisiyasına də yaxşı bələdəm. Son illərdə nəşr olunan bəzi kitablarını ilk hədiyyə etdiklərinin sırasında mən də varam və onları həvəslə oxuduğumdan, bilirəm ki, ixtisasca filoloq olsa da, ekologiyanı ekoloqlardan az bilmir. Cəfakeş akademikimiz Rafael Hüseynovun təbirincə desək: *"Əli Rza Xələfli sadəcə yaxşı ədib deyil, o, sözümüzün fədakar fəhləsi, zamanənin biganəliklərinə rəğmən, söz ocağımızın gur yanması üçün təmənnasız xidmət yolunu seçmiş qələm sahibidir".* Y.Dirili isə gözlərim önündə formalaşan ekoloqdur, Qara Mustafayev məktəbinin yetirməsidir. Gözəl qələmi, hadisə və prosesləri dürüst mühakimə etmək bacarığı var. Odur ki, kitabın kompüterdən çıxmış əlyazmasını dərhal oxumağa, qeydlər aparmağa başlayandan məndə bir fikir formalaşmağa başladı. Bu barədə yazımın sonunda... Amma kitaba və onun səbəbkarına münasibət bildirməzdən öncə onun müəllifi, əziz dostum Y.Dirili haqqında fikirlərimi dəyərli oxucularla bölüşməmək qəbahətim olardı.

Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Dirili Qurbani Məclisinin qurucusu və sədri, 70-dən çox elmi əsər, 11 kitab müəllifi Yusif Dirilini təxminən 2001-ci ildən tanıyıram və o gündən bu günə kimi onun elmi və ədəbi fəaliyyəti göz önümdədir. Mən Bakı Dövlət Universitetini fərqlənmə diplomları ilə bitirəndən sonra, 2001-ci ildə "Ekologiya" ixtisası üzrə Universitetin aspiranturasına daxil oldum. Elmi rəhbərim isə görkəmli alim, biologiya elmləri doktoru, professor, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının və Beynəlxalq Ekoenerji Akademiyasının akademiki, 35 il Azərbaycan Televiziyasında əvvəl professor Mirəli Axundovla "Təbiəti sevənlər", 2008-ci ildən isə yetirməsi, dosent Əbülfəz Tağıyevlə "Azərbaycan təbiəti" verilişinin aparıcısı Qara Mustafayev idi. Hamının "Bizim Qara müəllim" kimi tanıdığı təbiət vurğunu Qara müəllimin o vaxtlar məndən savayı da bir neçə aspirant və dissertantı var idi. Onların arasında Azərbaycandan savayı Gürcüstan, Yəmən Ərəb və İran İslam Respublikasının nümayəndələri də var idi. Dissertantlardan biri də Y.Dirili idi. Onunla səmimi yaranan, sonradan isə sıx dostluğa çevrilən münasibətimiz də elə o vaxtdan formalaşmışdı. İkimiz də qələm əhli olduğumuzdan söhbətrimiz də şirin alınırdı. Bilirdim ki, vaxtilə Təhsil Nazirliyinin nəzdində Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzində şöbə müdiri vəzifələrində çalışan, məktəbdənkənar müəssisələr üçün bir neçə nümunəvi tədris proqramlarının və metodik tövsiyələrin müəllifi olan Y.Dirili ölkəmizdə ətraf mühitin qorunması tarixi və respublikanın ekoloji problemləri ilə bağlı çox maraqlı bir mövzu üzərində çalışır. İki elmi rəhbəri var idi və tarix ixtisası üzrə ilk elmi rəhbəri, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutundan tarix elmləri doktoru Tahir Qaffarov idi. Lakin çox keçmədən Tahir müəllimin dünyasını dəyişməsi (ruhu şad olsun) Y.Dirilini çox sarsıtdı, ruhdan saldı. Digər tərəfdən Azərbaycan Respublikası Təhsil Nazirliyinin göndərişi əsasında Qobustan rayon İqbal İbrahimov adına Dərəkənd kənd tam orta məktəbində biologiya-kimya müəllimi vəzifəsində çalışması onun vaxtının böyük hissəsini alırdı. Odur ki, o, dissertasiya işini yarımnçıq qoyub, özünü bütövlükdə pedaqoqluğa həsr elədi. Amma buna baxmayaraq publisistik qeydləri ilə ara-sıra dövri mətbuatda çıxışlar edir, maraqlı kitablar nəşr etdirirdi, ilk olaraq da Qara müəllimə, mənə hədiyyə edirdi. Düşünürəm ki, həm baza təhsilinin "bioloq" olması, həm də iti, qəlbə yaxın qələmə sahib olması ona istənilən mövzuya maraqlı və tutarlı ekoloji biçim verməyə imkan verir.

***(Davamı 9-cu səhifədə)***

*(Əvvəli 8-ci səhifədə)*

Mən hər görüşümüzdə Y.Dirilinin dissertasiyasının vəziyyəti ilə maraqlanır, onu həvəsləndirməyə çalışırdım. Digər tərəfdən isə, Qara müəllimlə vaxtaşırı bu barədə söhbət salır, Y.Dirilinin kitablarında, yazılarında məqamlara diqqət yetirir, müzakirə edir, onun gələcəkdə dəyərli ekoloq-yazar olacağına ümidimi gizlətmirdim. Etiraf edim ki, Qara müəllimin də Y.Diriliyə münasibəti həmişə pozitiv olub. Lakin, nədənsə iş alınmırdı. Nəhayət, uzun illərdən sonra tilsim qırıldı, iş dirçəldi və sonunda çox uğurlu müdafiə ilə nəticələndi. Y.Dirilinin Tarix İnstitutunda keçən müdafiəsində həm İnstitutun o vaxtlı direktoru, qədirşünas akademik Yaqub Mahmudov, həm sonradan elmi məsləhətçisi olmuş Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov, həm xəstəlikdən yenicə duran və ilk dəfə olaraq ictimaiyyət arasına çıxan Qara müəllim, həm də rəsmi opponenti, dəyərli tarixçi-professor İbrahim Zeynalov və digər çıxış edənlər dissertasiya haqqında yüksək fikirdə olduqlarını qeyd etdilər. Şükürlər olsun ki, Y.Dirilinin əziyyəti yerdə qalmadı, onun təqdim etdiyi dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə cavab verdi və müəllif, tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almağa layiq bilindi. Yeri gəlmişkən onu da qeyd etməyi özümə borc bilirəm ki, bu uğura müəllifin özü qədər, Qara müəllim qədər, mənim qədər sevinən həm də Əli Rza müəllim idi...

İndi də kitab haqqında.

Mən, görkəmli nasir, şair, publisist, Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvü, Qabaqcıl maarif xadimi, Prezident təqaüdçüsü Əli Rza Xələflinin yaradıcılığına az-çox bələd idim. Çünki son illərdə özünün yazdığı və ya onun haqqında nəşr olunan kitabları ilk hədiyyə etdikləri sırasındayam. Lakin monoqrafiyanın əlyazmasını hekayə kimi oxuduqca müəllifin yaradıcılığında ekoloji məsələlərə dair tanış olmadığım məqamlara da aydınlıq gətirildi. Monoqrafiyada həm Ə.Xələflinin 70 illik həyat təcrübəsindən süzülübgələn nümunələr, həm də Y.Dirilinin bu nümunələrə şərhləri orijinallığı ilə diqqət çəkir - nümunələr təbiiliyi, həyatiliyi ilə, şərhlər ekolojiliyi ilə. Təbiətlə cəmiyyət arasında mövcud olan qırılmaz əlaqələr əksər halda qısa poetik nümumələrlə bədiiləşdirilir:

*Torpaq yansa su dilər,*
*Aşıq qəlbi su dilər.*
*Yara alan qan verər,*
*Əvəzində su dilər.*

Monoqrafiyada həmin epizodlara Y.Dirilinin tutarlı ekoloji açıqlamaları yazını daha da qüvvətləndirir. Geniş elmi spektrə, yüksək insanlığa və kəsərli qələmə sahib Ə.Xələflinin özü haqqında maraqlı bir fikri var: *"Məni danışdırmağın bircə yolu var: istər təbiət olsun, istərsə də insan, ya təbiətin bir ecazkar lövhəsi, şimşəyi ilə, gurultusu ilə, ildırımı, yağışı, dolusu, günəşi, buludu, üfüqü, şəfəqi, qürubu, ya da insanın ruhi-mənəvi aləmi ilə tamamlanan gözəlliyi, mərdliyi, sənəti, qüdrəti - bütövlükdə tarix, incəsənət, ədəbiyyat... məni heyrət önündə qoysun... ".*

Əslində bu fikir özlüyündə böyük ekoloji məna kəsb edir. Bəli! Ə.Xələflini heyrətə gətirən insanın ruhi-mənəvi aləmi də, onun üçün əvəzolunmaz mənbə olan təbiət də, onun komponentləri də çox böyük ustalıqla təsvir edilib:

***Küləklər saç yoldu, bulud eşnədi,***
***Şimşək çaxmaq çəkdi, ocaq qaladı.***
***Yiyəsiz çöllərdə bir at kişnədi,***
***Hardasa dağlarda bir qurd uladı.***

Ə.Xələflinin əsərlərində günəşin doğması da, buludun dolması da, üfüqün işartısı da, şəfəqin zərrələri də, şimşəyin çaxması də, yağışın yağması da, küləyin əsməsi də, vulkanın püskürməsi də, zəlzələnin təkanı da, qurdun ulaması da olduğu kimi canlanır gözümüzün önündə. Bu da yazarın məharətindən, ustalığından irəli gəlir:

*Yer yarıldı dərindən, qalxdı, oyandı bəla,*
*Parçalandı göy üzü, dərdə boyandı bəla...*
*Yeri, göyü titrədən dəhşətli zəlzələdən,*
*Dağlar əsdi, titrədi bu qorxunc vəlvələdən.*
*Axarını dəyişdi, bulaqlar da ağladı,*
*Dağların sinəsində çatlar yara bağladı.*

Düşünürəm, təbiətdə elə mövzu ola bilməz ki, Ə.Xələflinin gözündən yayınsın. Tarixin sirlərini təbiətin sirləri ilə vəhdətdə təqdim edən dəyərli tədqiqatçı, tarix üzrə fəlsəfə doktoru Y.Dirili "Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər" monoqrafiyasında yazır ki: *"İnsan-təbiət münasibətləri çərçivəsində müəllifin bədii yaradıcılığı ətraf mühit yönündə elmi fikirlər söyləməyə imkan verir"*. Mən isə etiraf edim ki, Ə.R.Xələflinin yaradıcılığından nümunələrlə tanış olduqda, onun sadəcə filoloq olduğuna bir qədər şübhə ilə yanaşdım. Səbəb də budur ki, məncə, Ə.Xələfli təbiəti təbiətşünaslardan, botanikanı botaniklərdən, zoologiyanı da zooloqlardan zəif bilmir. O, haqqında söz açdığı istənilən bitkini, heyvanı əsl mütəxəssis kimi - peşəkarlıqla təsvir edir. Belə ki, onun yaradıcılığında çinar, söyüd, qovaq, bənövşə, qarğı, qaramıx, qaratikan, dəmirtikan, saqqızağacı, yabanı badam, qoz, tut, dağdağan, nar, əncir, və s. bitkilərin adları dəfələrlə çəkilir və bunlardan hansının soyuğadavamlı, hansının istiyə davamlı, hansının birillik, hansının çoxillik bitki olması, özlərini kənar təsirlərdən qorumaq üçün hansı bitkilərin tikanlara, yaxud dalayıcı tükcüklərə malik olması, tumurcuqlama, yarpaqlama, çiçəkləmə, boyatma, ardınca meyvə və toxumların əmələ gəlməsi kimi həyati proseslər olduqca sərrast təsvir edilib. Ə.Xələfli qələmində adi yovşan sadəcə ot bitkisi deyil, yovşan - Vətəndir, Yurddur, torpaqdır. Zərif və xoş ətirli bitki olan bənövşənin isə bitdiyi məkan, taleyinin küləkdən və istidən asılı olması dəqiq bilik və müşahidəçiliklə bayatı formasında verilib:

*Sayrılığın fələkdəndi,*
*Ayrılığın küləkdəndi,*
*Yanmağın da diləkdəndi*
*Sinən üstə yan, bənövşə!*

Ə.R.Xələflinin heyvanlarla bağlı təsvirləri də çox orjinal və maraqlıdır. Onun əsərlərində onurğasızlardan zəli, sürünənlərdən koramal, ilan (həttə ilanların çoxalma dövründə vazkeçilməz davranış atributu sayılan "nigah ritualları"nın təsviri), quşlardan kəklik, qırqovul, qaranquş, qırğı, qızılquş, məməlilərdən at, köstəbək, dağ keçisi, yarasa, dəvə, bəbir, zolaqlı pələng və s. heyvanların biotopu, həyat tərzi, davranışı, qida xarakteri, qida vaxtı və qidalanma üsulu, sosiologiyası, ekoloji mövqeyi və s. (bir sözlə, əsas bioekoloji xüsusiyyətləri) haqqında elə qısa, konkret, eyni zamanda dəqiq, sərrast təsvirlər verilir ki, oxuyanda təəccüb edirsən ki, bunu yazan filoloqdur, yoxsa ekoloq? Onun bu təsvirləri geniş bilik spektrinə və çox böyük müşahidəçilik qabiliyyətinə əsaslanır:

*Xəbəri bahardan soraq yetirər,*
*Fal qoyar ümidə, bala gətirər.*
*Nəğməsi gül açar, çiçək bitirər,*
*Özü çiçək-çiçək solan qaranquş.*

Etiraf edim ki, bu bənddə birinci misranın elmi səhvsizliyi məni valeh etdi. Çünki, adətən *"qaranquş bahar gətirir"* deyimi ilə tez-tez rastlaşırıq. Amma əslində qaranquş bahar elçisi deyil, o, bahar gətirmir, bahar onu gətirir, qaranquş isə bunu, isti ölkələrdən qayıdaraq öz gəlişi ilə xəbər verir. Xalqın *"Qaranquş bahar müjdəçisidir"* deyimi də səhvən yaranmayıb.

Yırtıcı quş olan qızılquşun ovuna hücum etməsi isə müəllifn qələmində xüsusi dəqiqliklə təsvir edilib:

*Şığıdı, kəkliyi tutdu qızılquş,*
*Dağlar inildədi dilində qarğış.*

Azərbaycan faunasında qızılquşkimilər dəstəsinin 38, qızılquşlar fəsiləsinin 8 növü var. Bunlara gündüz yırtıcıları da deyirlər. Hamısı ya yırtıcı, ya da leş yeyən - sanitardırlar. Qızılquş quşların şahıdır. Buna şahin, tərlan, laçın da deyilir. Çox qoçaqdır, ovçuların köməkçisidir. Özü qarğa boyda olmasına baxmayaraq, kəklik, bildirçin kimi quşlar onun adi ov obyektidir, Ata-babalarımızın şahin ilə bağlı yaratdıqları deyim də çox elmidir: *"Şahin ilə dəvə ovlanmaz"*. Çünki, bu quş tülkünü də ovlaya bilir, hətta canavara hücum edib çaşdırır. Lakin dəvəyə gücü çatmaz. Ə.R.Xələflinin də *"Şığıdı, kəkliyi tutdu qızılquş"* fikri, bu növün həqiqətən ovunun üzərinə şığımaqla hücum etməsinə doğru işarədir. Atalarımızın buna yaxın başqa bir deyimi də var: *"Quşu quş ilə tutarlar"*. Belə ki, ov tüfəngi ixtira edilənə qədər qaz, ördək, qırqovul, bildirçin kimi quşları ələ öyrədilmiş qırğı və qızılquş kimi ovçu quşlar vasitəsilə əldə edibl ər.

Əli Rza Xələflinin canavarın təsvir olunduğu belə bir bayatısı da diqqəti çəkir:

*Qurd ovlaqda ac olmaz,*
*Qurd ağzı var-ac olmaz.*

Bu bayatıya Y.Dirilinin şərhi də dəqiq və elmidir. Mən isə bu şərhə sadəcə əlavə etmək istərdim ki, qurd (canavar) adətən güclü yırtıcı heyvan kimi tanınır. Amma maraqlısı odur ki, qida baxımından canavar polifaq heyvandır. Yəni, heyvan mənşəli yem tapmadıqda, asanlıqla bitki mənşəli yemə keçə bilir. Odur ki, *"Qurd ovlaqda ac olmaz, Qurd ağzı var-ac olmaz"* fikri bu növün bioekoloji xüsusiyyətlərini, xüsusən də qida xarakerini tam əks etdirir.

Dəyərli tədqiqatçı, filologiya elmləri doktoru, professor Məsud Mahmudov *"Pirlər bulağından novatorluğa"* kitabına ön sözündə haqlı olaraq yazır: *"Əli Rza Xələfli şəxsiyyətini, onun çoxşaxəli, çoxqütblü yaradıcı fəaliyyətini bir neçə sözlə ifadə etmək çox çətindir. Əli Rza Xələfli sözün əsl mənasında, mübaliğəsiz Azərbaycan ədəbi-bədii mühitinin fenomenidir, Azərbaycan adlanan qədim tarixi ənənələri, mədəniyyəti, ədəbiyyatı, incəsənəti, söz adamları, parlaq gələcəyi olan bir məmləkətdə hadisədir"*.

Bəli! Ə.Xələfli yaradıcılığı haqqında bir çox görkəmli alimlərimiz, tənqidçilərimiz, tanınmış söz adamları xoş sözlər yazıblar. Belə ki, akademiklər Teymur Bünyadov (ruhu şad olsun), Rəfael Hüseynov, elmlər doktorları: Mədəd Çobanov, Şahin Fazil (ruhları şad olsun), Qulu Məhərrəmli, Nizaməddin Şəmsizadə, İsmayıl Kazımov, Vaqif Yusifli, Yədulla Ağazadə, Məsud Mahmudov, Abid Tahirli, elmlər namizədləri: Müşfiq Çobanlı, Tariyel Abbaslı, Qədim Rufullayev, Şəddat Cəfərov, Abbas Hacıyev, Əkbər Əlioğlu, İlham Məmmədli, Yusif Dirili, ədəbiyyatşünaslar: Sabir Bəşirov, Qurban Bayramov, Təyyar Salamoğlu, İsmayıl İmanzadə, Nəriman Mahmud, Avdı Qoşqar, Əli Bəbiroğlu və başqaları həsr etdikləri kitablarında, kitablara yazılan ön sözlərində, rəylərində və məqalələrində Ə.Xələfli yaradıcılığının orjinallığı barədə yüksək fikirlər bildiriblər.

Yazının əvvəlində Ə.Xələflinin *"Ətraf mühitə verdiyimiz sevgi də, nifrət də gec-tez özümüzə qayıdır"* fikrini iqtibas kimi istifadə etmişdim. Həqiqətən də, həyat və təbiət - bumeranqdır. Bu gün etdiyimiz, pis, yaxşı nə varsa, sabah özümüzə qayıtmalıdır. Bunu təbiət hadisələrinin misalında daha aydın görmək olar. Belə ki, elmi-texniki inkişaf bəşəriyyət qarşısında hələ ki, həlli mümkün olmayan çətinliklər yaratmışdır. Bu siyahıda da əsas yeri insan-təbiət arasında münasibətlər tutur. Ötən əsrdə əhalinin 4 dəfə, istehsalın həcminin isə 20 dəfəyə qədər artması planetimizdə ciddi problemlər yaratmışdır. Ətraf mühitə antropogen təsir dünyanın bütün ölkələrini əhatə etdiyi üçün bu, qlobal ekoloji problem adlandırılmağa başlanmışdır. Təbiətə isə biganə qalmaq olmaz, təbiətin sirlərini öyrənmək insanın əsas inkişaf yoludur.

# NASİRLİKDƏN EKOLOQLUĞA

**(Davamı 13-cü səhifədə)**

**(Əvvəli 9-cu səhifədə)**

İndiki qloballaşma adlı dövrdə bu ehtiyac daha da çoxalıb. İnsan özü də təbiətin ayrılmaz bir hissəsidir. Təbiəti öyrənən eyni vaxtda özünü öyrənmiş olur. Ə.Xələflinin yaradıcılığında da (istər poeziya nümunəsi olsun, istər nəsr) ətraf mühitə neqativ antropogen təsir, bunun acı nəticələri peşəkarlıqla qələmə alınıb. Bunlar əhalinin həyatının bütün sahələrini və onun ətraf mühitinə münasibətinin tarixi çalarlarını əhatə edir:

*Güllər solub ötən ömrün bağında,*
*Sözü yoxdur qəm çağlayan çağın da.*
*Dayanmışam ağ yaşımın dağında,*
*Deyən yoxdur bu kimsənin dərdi nə?*

Y.Diriliyə görə, *"Ə.R.Xələfli yaradıcılığı həm də ona görə qiymətlidir ki, yazıçı hər şeyin dəyərdən düşdüyü indiki çətin məqamda insan haqqı problemi, mənəviyyatın ekologiyası kimi vacib məsələləri hər zaman diqqətdə saxlayır, daim göz önünə gətirir".*

Bəli! Özü doğru-dürüst, məsləkli adam olan Ə.R.Xələfli ətrafında olan hər kəsi özü kimi görmək istəyir, yalandan, fitnədən, fəsaddan, hiylədən uzaq bir insan, Allah-Təalanın yaratdığı kimi, əsl insan kimi. Əbəs deyil ki, müəllif, yaramaz insanları bayquşla eyniləşdirir:

Axı özü də bu yolu tutub hər zaman:

*Yalanlardan uzaq qaç*
*Qalsan da ac-yalavac.*
*Əzablara sinə gər,*
*Düzə, doğruya yol aç.*

Əli Rza Xələflinin zəngin ekoloji, sosioloji və psixoloji bilikləri əsa-sında yaratdığı aforizmləri də, hikmətli kəlamları da maraqlıdır. Bu aforizmlərdə özünü dərk etməyin yolları göstərilir. Tanınmış yazıçı-publisist, neçə-neçə roman, povest müəllifi Nəriman Mahmud Ə.Xələflinin aforizmlərindən, hikmətli kəlamlarından ibarət "Heyrətin çağırışı" adlı ədəbi-fəlsəfi essesində yazır ki: *"Ə.R.Xələfli daim coşub-daşan, kükrəyən, enerjisi bitib tükənməyən, hər zaman sözün keşiyində dayanan SÖZ adamıdır. Ə.R.Xələfli sadəcə yazmır, həm də yaradır. Ə.R.Xələfli sözü ilmə-ilmə toxuyub möhtəşəm bir SÖZ ÇƏLƏNGİ düzəldir...".*

O ilmələrdən bir neçəsinə nəzər yetirək: *"Vicdan insanı ən doğru düşüncə və hərəkətlərə sövq edən mənəvi nəzarət mexanizmidir"* və ya, *"Müdrik, bilikli olmaqla yanaşı, həm də biliyi xeyirli olan, bildiyini özü və başqaları üçün faydalı olacaq şəkildə istifadə edə bilən insana deyilir".* Göründüyü kimi, daim belə mövzulara dair düşünən və düşündüyünü sevimli oxucularına çatdırmaqdan usanmayan müəllifin əsas məqsədi öz

Bu barədə son 30 ildə çox yazılıb, çox deyilib, çox nümunələr qələmə alınıb. Amma Ə.R.Xələflinin yazdıqları adama göyüm-göyüm göynədir, sızım-sızım sızladır:

*Bağban getdi, bağ qaldı*
*Bağ-barxana, bağ qaldı...*
*Yağı tapdaq elədi,*
*Qarabağda bağ qaldı?*

İstər I, istərsə də II Qarabağ Müharibəsinin epizodlarını xatırladan hekayətlər, səhnələr, dialoqlar, bu facıə içərisində təbiət komponentlərinə, xüsusilə, çöl göyərçininə, onun balalarına qayğı bəsləmək çox təsirli alınıb. Məncə, bu yazıların belə təsirli olması həm də Ə.R.Xələflinin doğulub, boya-başa çatdığı Cəbrayıl rayonunun. Xələfli kəndinin, Diri dağı təbiətinin 30 il tapdaq altında qalmasıdır. Müəllifi göynədən də, yazısını təsirli edən də bu yurd həsrəti, Vətən nisgilidir:

*Bir ata, bir ana ocağı sönüb,*
*Qardaşlar, bacılar xəyal qırağı;*
*Dolanıb zəmanə, dövran da dönüb,*
*Yenə yanacaqmı ümid çırağı?!*

Amma hər qaranlıq gecənin bir aydın sabahı olduğu kimi, bu zülmətin də bir sonu olacağına hamımız inanırdıq. Müəllif də hamımızın dilindən:

*Tikilər şəhərlər, qurular kəndlər,*
*Vətənə bu yeni tarix yazılar.*

# NASİRLİKDƏN EKOLOQLUĞA

*Bayquşsan, yapalaqsan - viranlığa düşmüsən,*
*Gözlərin torlanıbdı - toranlığa düşmüsən,*
*Zülmətə qərq olmusan - qaranlığa düşmüsən.*

Əslində bu təbiidir. Çünki tarixən bayquş xarabalıq simvolu kimi dəyərləndirilmiş və əhalidə bu quşa qarşı ikrah hissi formalaşmışdır. Ata-babalarımızın: *"Bayquş xarabalıq sevər"* və *"Bayquş xarabalığı gülüstana dəyişməz"* deyimləri də, çox guman ki, bu səbəbdən yaranıb. Amma mən düşünürəm ki, bu cür yanaşma əhalinin bayquşun bioekologiyasını yaxşı tanımamasından irəli gəlir.

Belə ki, bayquş xarabalıq yaratmır, sadəcə bayquş hər hansı səbəbdən xaraba qalmış sahibsiz (sakitçillik olan) damda məskən salmağı xoşlayır (elə bu cümlələri yazarkən bağda idim. İllərdir bu yerlərdə axşamlar bir cüt bayquşun səsi gəlir. Amma onlar gəlişləri ilə xarabalıq gətirmirlər, Sadəcə hansı qonşu bağda qalmırsa və əgər hündür damı, çardağı, antenna dirəyi varsa, ora qonurlar-***müəll.***). Xaraba damda yaşayan bayquş siçanları və digər gəmiriciləri yeməklə qonşulara fayda verir. Amma bayquş xarabalığı gülüstana həm də ona görə dəyişmir ki, gülüstanda bayquşun əsas yemi (gəmiricilər) yoxdur, səs-küy və başqa narahatedici faktor (amil) çoxdur. Bəzən bu deyimi təklik sevən adama da yönəldirlər:

*Gündü, keçər deyərlər - sabaha bax, ay adam.*
*Olmayan Allahına, Allaha bax, ay adam.*

Heç bir heyvan özünün populyasiyasından olana yalan informasiya nümayiş etdirmir. Heyvanların bütün siqnalları *(səs və kimyəvi siqnallar, vücud forması, hərəkət qaydası, güc və ağıl nümayişi)* birmənalı düzgün informasiyadır. Doğrudur, heyvanlarda özünü ölülüyə vurma və s. hərəkətlər varsa da, bu, yalnız təhlükədən, ovçudan, yırtıcıdan özünü və nəslini qurtara bilmək üçündür. Öz soyundan olanlara "yalan" adlı silahını tuşlamaq yalnız İnsana məxsusdur. Monoqrafiyada yaxşı göstəricilər ön plana çəkilib alqışlanaraq insanlığa ləkə gətirən xislətlərdən qurtulmağa çağırışlar edilir:

*Birinə yol göstərib insanlığa çəkirsən,*
*Birinin ürəyinə sağlam toxum əkirsən.*
*Adamlığa gəlməyi istəmirsə birisi,*
*Mənasız zəhmət çəkib, havayı tər tökürsən.*

İnsanın yalanı üçün məkan və zaman məhdudiyyəti yoxdur. Ə.Xələfli də insanı insan olmağa, ac-yalavac qalsa da yalanlardan uzaq durmağa səsləyir. Müəllif, düzə, doğruya yol açmaqdan ötrü əzablara sinə gərməyi hər şeydən üstün tutur.

oxucusunun özünü dərk etməsinə, ən doğru düşüncə və hərəkətlərə sövq olunmasına, insan kimi yaşamasına yardımçı olmaqdır.

"Heyrətin çağırışı" adlı ədəbi-fəlsəfi essenin redaktoru, dəyərli alim, filologiya elmləri üzrə fəlsəfə doktoru Əkbər Əlioğlu kitaba yazdığı ön sözdə qeyd edir ki: "Xalq hikməti - aforizm birbirini tamamlayır. Bu baxımdan Ə.Xələflinin aforizmləri, ibrətamiz nəsihətlərinin əsas qaynağı folklordur, elmi-fəlsəfi fikir dünyasına bələdliyidir, aforizmləri dillərdə gəzən ədəbi şəxsiyyətlərimizin əsərləri ilə limhəlim dolmasıdır və üstəgəl özünün məcrasına sığmayan elmi-ədəbi təfəkküründən süzülüb çağlayan poetik düşünərliyin zaman qatlarıdır".

Əli Rza Xələfli öz "Kredo"sunda cavan yazarlara həmişə yaşıl işıq yandırıb. Dəyərli tədqiqatçı, filologiya elmləri doktoru, professor Məsud Mahmudov professor Yədulla Ağazadənin "Pirlər bulağından novatorluğa" kitabına ön sözündə haqlı olaraq yazır: *""Kredo" bir məktəb, elm məbədi, müqəddəs bir ocaqdır. O ocağın sahibi, himayəçisi, qoruyucusu Əli Rza Xələflidir. O ocaq minlərlə insana xeyir-dua verib, yol göstərib, gənc istedadların ürəyinə öz ürəyinin odunu, nurunu, işığını, hətrarətini qoyub!"* ("Pirlər bulağından novatorluğa" kitabı, s.5).

Kredo - tərcümədə "məslək", "əqidə" deməkdir. Əli Rza Xələflinin də məsləyi, bir sözə xidmət, bir də qələm yoldaşlarının (xüsusən, gənc yazarların) yoluna işıq saçmaq olub həmişə. Qeyd etməliyəm ki, bu sırada mən də varam. Belə ki, nə vaxt Ə.Xələfliyə hansısa bir məqalə, publisistik yazı təqdim etmişəm, canla-başla, tərəddüd etmədən, bir hərfini dəyişmədən "Kredo"da çap etdirib (odur ki, mənim bu insana bir mənəvi borcum var idi). Onu qeyd edim ki, mən hər dəfə o redaksiyada olanda Ə.Xələflinin bir xüsusiyyətini də özüm üçün aşkar etmişəm, o da, mətnlərini kompüterdə yazan operatora birbaşa, sinədən diktə etməsidir. Bunun üçün də dərin bilik, geniş intellekt və bol söz ehtiyatı olmalıdır.

Ə.R.Xələflinin yaradıcılığında ürək yanğısı ilə qələmə aldığı mövzulardan ən başlıcası ölkəmizin haqsız olaraq üzləşdiyi amansız müharibə və onun törətdiyi dəhşətlərdir:

*Şuşa yolu car olar,*
*Yazda sular car olar.*
*Yurdu talan olanın,*
*Sözü dildə car olar*
*Arxlara su gələr, çəkilər bəndlər,*
*Qədim Qarabağda yenə yaz olar, deyirdi.*

Çox şükürlər olsun ki, 44 günlük ikinci Qarabağ savaşında Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun əzmi sayəsində yurd yerlərinin 30 illik işğalına son qoyuldu, düşmən geri qovuldu. Xalqımızı sevindirən bu soraq Ə.R.Xələfli yaradıcılığında yaz ətri, bahar təravəti ilə duyulmaqdadır:

*Açılıb Qarabağın üzünə təzə bahar,*
*Könüllərdə yaz ola, ruhlarda gəzə bahar.*
*Araz boyu gül dərə, yağını üzə bahar,*
*Silahları qırmağa gücünü yığ, zor da gəl!*

Tanınmış poliqrafçı alim, iqtisad elmləri üzrə fəlsəfə doktoru, yazıçı-publisist Şəddat Cəfərov Ə.R.Xələflinin "Xəzanda yaz gülləri" xatirə-poeması rəyində yazır ki: *"Ə.R.Xələflinin yaradıcılığının yeni mərhələsi mənim düşüncəmə görə 44 günlük savaşda ordumuzun qələbəsindən sonra başlayıb. Məhz bu mərhələdən sonra Xələfli ardıcıl olaraq yeni əsərləri ilə öz oxucularını məmnun edib. Ordumuzun tərənnümü, vətənin müdafiə məsələsi, torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizə onun yaradıcılığından əsas xətt kimi keçir".*

Yazımın əvvəlində qeyd etdim ki, kitabın kompüterdən çıxmış ilk nüsxəsi mənə təqdim olunanda və kitabın adının *"Əli Rza Xələfli yaradıcılığında ekoloji məsələlər"* olduğunu görəndə bir qədər fikrə getdim... Amma monoqrafiyanın əlyazmasını oxuduqca, Ə.Xələflinin bayatıları, nəşr olunmuş əsərləri, şeirləri, poemaları, o cümlədən publisistik qeydlərinin ekoloji baxımdan hərtərəfli təhlili ilə tanış olduqca anladım ki, bu əsər sadəcə fəlsəfi-bioloji-ekoloji traktat deyil, görkəmli bir ədibin soy-kökümüzün mənəvi zənginliyinə işıq tutan bir baxış bucağıdır. Kitabın əlyazmasının ilk səhifələrindən beynimdə yaranan fikir, irəlilədikcə daha da qüvvətləndi, son səhifəyə qədər isə tam təsdiqini tapdı ki: "Əli Rza müəllim təkcə peşəkar qəzetçi, şair, nasir, publisist və s. deyil. O, əsl ekoloqdur - Vətənini, torpağını, ana təbiətin hər daşını, hər otunu, hər cığırını sevən ekoloq". Bu yolda mən, əziz qələm dostuma ekoloji məsələlərin təsvirinə dair yeni-yeni kitablar yazmağı arzulayıram.

**10.09.2024**